Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

№ 16 (1144) 27 yanvar - 28 yanvar 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

# LERİK - 2015

> " ...Lerikin son illər ərzində inkişafı məni çox sevindirir. Son illərdə böyük bir irəliləyiş olmuşdur. Lerikdə sosial problemlər öz həllini tapır. İnsanların istirahəti üçün gözəl imkanlar vardır".
>
> *Azərbaycan Respublikasının Prezidenti*
> *İlham Əliyev*

**Azərbaycanın iqtisadi-siyasi coğrafiyasını göz önünə gətirəndə cənub bölgəsinin özünəməxsus təbiəti olan və həmişə də qeyri-adi özəllikləri ilə fərqlənən Lerik rayonu dərhal diqqəti özünə çəkir. Bu rayonun həm təbii mənzərəsi, həm onun Azərbaycan coğrafiyasındakı yeri birmənalı şəkildə fərqlənir. Hətta Lerik dağları, meşələri barəsində yazılanlar, deyilənlər, Lerikin mədəni-kütləvi mühiti ilə bağlı dilə gətirilənlər, üstəlik burdakı folklor həmişə cəlbedici olub. İstər bir tamaşası, istər bir dinləyici kimi bu mühitə daxil olanda onun qeyri-adi özəllikləri ilə başbaşa qalmağın nə qədər düşündürücü və ürəkaçan olduğunu görməmək, yan keçməmək mümkün olmayıb. Təbii ki, bütün bunlar da təkcə ərazi coğrafi baxımdan deyil, həm də bu regionda yaşayan insanların torpağa, milli-mənəvi dəyərlərə bağlılığı ilə də fərqləniblər. Elə ona görə də Regionların İnkişafına dair Dövlət Proqramının necə gerçəkləşdiyini öyrənmək istəyimizlə üz tutduğumuz ünvanlardan biri də Lerik rayonu oldu.**

Bəli, bu gün Azərbaycan dünyanın bir parçası olaraq özünün özəllikləri ilə həm fərqlənir, həm də bu fərqli cəhətləri dünyaya göstərə bilir. Həmin fərqli cəhətlərin içərisində ən önəmlisi Regionların İnkişafına dair Dövlət Proqramıdır. Yəni bu məmləkətdə hakimiyyətdə olan iqtidar təkcə paytaxtı, iri şəhərləri deyil, həm də regionları inkişaf etdirmək üçün xüsusi bir proqram hazırlayıb. Həmin proqrama görə, Azərbaycanın şəhərləri və kəndləri arasındakı fərq minimum səviyyəyə endirilməlidir. Bir az da ətraflı açıqlasaq, kənd və şəhər adamlarının yaşayış səviyyəsi eyni müstəviyə çıxmalıdır. Bax, bu mənada ölkənin istənilən regionu Azərbaycan prezidenti cənab İlham Əliyevin xüsusi diqqəti altındadır və bu diqqətin də bir tələbi var, o da regionların inkişaf etdirilməsidir. Məhz inkişaf konsepsiyasına uyğun olaraq bütün regionlarımız kimi Lerikdə də rayon icra hakimiyyətinin başçısı Rövşən Bağırovun rəhbərliyi altında rayon icra hakimiyyəti başçısı yanında Şuranın xüsusi tədbirlər planı hazırlanıb. Əslində bu, bir layihədir. Həmin layihəyə uyğun olaraq bölgədə, yəni Lerik rayonunda təkcə cari planlar deyil, həm də yaxın gələcək üçün müəyyən perspektiv planlar hazırlanıbdı. Cari və perspektiv planların əsas məğzi isə Lerik rayonunun həm coğrafi baxımdan, həm iqtisadi baxımdan, həm də sosial baxımdan inkişafını təmin etməkdir. Coğrafi baxım deyəndə, burada əsas məqsəd kimi təbiətin bu bölgəyə bəxş etdiklərini qoruyub saxlamaq nəzərdə tutulur. O ki, qaldı digər iqtisadi və sosial baxımlara, burada da əsas məqsəd insanların ailə büdcəsini onların tələblərinə uyğun səviyyəyə çatdırmaq və bir də sosial həyatlarını təmin etmək. Deməli, bütün bunlar üçün rayon icra hakimiyyətinin başçısı və onun komandası ölkə prezidentinin qarşıya qoyduğu tapşırıqları yerinə yetirməklə bərabər, həm də özləri yerli şəraitə uyğun olan layihələri gerçəkləşdirməlidirlər.




Biz "Ədalət" qəzeti olaraq regionların inkişafına və bu inkişafın nəticələrinə oxucu marağını nəzərə alıb bölgələrdə olarkən bir məqama xüsusi diqqət yetirmişik. Bu da təkcə zahiri yenidənqurma, təmir-bərpa yox, həm də köklü islahatlarla bağlı olubdu. Bax, bu mənada Lerik rayonunda olarkən qarşılaşdığımız mənzərə bizdə təkcə maraq hissi yox, həm də baş verənlərə qarşı bir sevinc, bir doğmalıq, bir təbliğ etmək istəyini də ortaya qoyubdu. Çünki gördüklərimiz bizim üçün həm maraqlı, həm də təsiredici gücə malik olubdu.



Bəli, bu gün Lerik rayonu Azərbaycan iqtisadi coğrafiyasında tutduğu yerə görə bir cənub bölgəsidir. Və bu bölgənin inkişaf etdirilməsi Azərbaycan üçün bir neçə mənada çox önəmlidir. Həmin mənaların ən önəmlisi də Lerikin həm də sərhəddə yaxınlığı, dövlət sərhədinə bağlılığıdı. Ona görə də ölkə prezidenti və əlaqədar qurumlar bu bölgəyə həmişə xüsusi önəm veriblər.

Bəli, istənilən bölgənin sosial-iqtisadi inkişafının əsas məğzini bu bölgədə insanların həyat səviyyəsinin yüksəldilməsi təşkil edir. Elə bu aspektdən yanaşanda onda Lerik rayonunda da özünəməxsusluğu ilə yanaşı, bütün bölgələrə xas olan keyfiyyəti də üzə çıxır. Yəni Azərbaycanın hər bir regionu kimi Lerikdə də fəaliyyət göstərən dövlət qurumlarının əsas vəzifəsi bu ərazidə yaşayan insanların fəaliyyətinə, işləməsinə, yaşamasına, arzularını çin etməsinə şərait yaratmaqdı. Təbii ki, burada da başlıca kriteriya dövlətçilik və dövlətə xidmətdir. Elə bu prizmadan diqqət yetirəndə onda aydın olur ki, digər bölgələrimiz kimi Lerikdə də rayon icra hakimiyyətinin başçısı Rövşən Bağırovun nəzarəti altında konkret fəaliyyət proqramı gerçəkləşdirilir. O proqramın da əsas məramı, məğzi insanların həyat səviyyəsinin yüksəltməkdir. Azərbaycan prezidentinin son aylarda, eləcə də cari ilin son ongünlüyündə keçirdiyi iclas və konfranslar göstərir ki, bu gün ölkə rəhbərliyi yalnız və yalnız xalqın sosial durumunu, onun həyat səviyyəsinin yüksəldilməsini birmənalı şəkildə özünün məqsədi elan edibdi və bütün diqqət də bu məqsədə ünvanlanıb.

**(ardı var)**

***Ceyhun RÜSTƏMOV***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ